**Mehmet Necati DƏMİRCAN**

# ELÇİBƏY

**Sənədli-bədii tarixi roman**
**Azərbaycan nəşri üçün yenidən işlənib**

Uyğunlaşdırdı:
Aygül Rəncəliyeva

qanun nəşriyyatı

**Mehmet Necati DƏMİRCAN. Elçibəy**
*Azərbaycan nəşri üçün yenidən işlənib.*
Bakı, Qanun Nəşriyyatı, 2024, 536 səh.

Janr: sənədli-tarixi roman
Ölçü: 130x200 mm
Cild: yumşaq
Çapa imzalandı: 14.02.2024

| | |
|---|---|
| Naşir: | Şahbaz Xuduoğlu |
| Redaktor: | Prof. Dr. Ədalət Tahirzadə |
| Korrektor: | Əyyar Tahir |
| Texniki redaktor: | Aygül Yelmarlı |
| Mətn dizaynı: | Ramin Əli |
| Qapaq dizaynı: | Rafael Qasım |

Qanun Nəşriyyatı
Bakı, AZ 1102, Tbilisi pros., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212 42 37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-38-893-0

© Qanun Nəşriyyatı, 2024
© Mehmet Necati Dəmircan, 2024

Bu kitabın yayım hüquqları Qanun Nəşriyyatına məxsusdur.
Kitabın təkrar və hissə-hissə nəşri "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Azərbaycan Respublikasının Qanununa ziddir.

İlk dəfə Türkiyədə (Kayseri, 2000) işıq üzü görmüş bu sənədli-tarixi roman çağdaş Azərbaycan tarixinin ən işıqlı simalarından biri, ikinci müstə-qil Azərbaycan dövlətinin demokratik yolla seçilmiş ilk prezidenti Əbülfəz Elçibəyin (24.06.1938-22.08.2000) doğumundan ölümünədək olan bütün həyatını bədii-publisistik dillə əks etdirir.

Müəllif M.N.Dəmircan bu əsəri ərsəyə gətirmək üçün Azərbaycanda və Türkiyədə nəşr olunmuş çoxlu kitab və məqalə ilə, internetdə yayımlanan çoxsaylı yazılı və video-materiallarla tanış olub.

Əsər bütün təbəqələrdən olan oxucular üçün nəzərdə tutulub.

## İÇİNDƏKİLƏR

*Prof. Dr. Ədalət TAHİRZADƏ.*
*Sanki yoldaşı olmuş kimi. (Ön söz yerinə) ....................... 10*
Kələki ........................................................................ 20
Xəlil yurduna köç ....................................................... 23
Bir qara ilan ................................................................ 34
Dünyada hərb vardı .................................................... 40
Əbülfəzin məktəb vaxtı .............................................. 54
Qaydaları qalib müəyyən edir .................................... 58
Kəndə gələn qonaqlar… .............................................. 58
Orta məktəb illəri ........................................................ 65
Bakı ............................................................................. 70
41 nömrəli otaq ........................................................... 75
Misirdə tərcüməçi ....................................................... 79
Misirdən dönüş ............................................................ 89
Moskva ....................................................................... 90
Kələkiyə dönüş ............................................................ 98
Təşkilatı canlandırma .................................................. 104
Nəsrin Sipahi Bakıda ................................................... 107
"Kobud səhvlərə yol vermişlər..." ............................. 109
Qəzetdən kəsilən hərflər ............................................ 110
Ağsaqqallar ................................................................. 111
Xəbərdarlıqlar... .......................................................... 116
Dekan müavini Məmməd Əfəndiyev ......................... 118

KQB mərkəzində ........................................................ 120
Yol ayrıcı ........................................................ 127
KQB-nin mənzili axtarması ........................................................ 131
KQB-də dindirilmə ........................................................ 135
Ana ürəyi ........................................................ 140
Məhkəmə ........................................................ 144
Siyasi məhbus ........................................................ 152
Azadlıq ........................................................ 156
Bakıya dönüş ........................................................ 161
Siyasi Büroda bir azərbaycanlı ........................................................ 163
Əlyazmalar İnstitutu ........................................................ 164
Əbülfəz evlənir ........................................................ 168
Brejnevin dəmir pərdəsi ........................................................ 175
1986-cı il Almatı hadisələri ........................................................ 178
1987-də Əbülfəzin xəstəliyi ........................................................ 179
Mehrinisə ananın Kələki həsrəti ........................................................ 188
Oyun içində oyun ........................................................ 190
Dirəniş ........................................................ 192
Ermənistandan sürgün ........................................................ 200
Sumqayıt fitnəkarlığı ........................................................ 202
Ağsaqqalların təşəbbüsü ələ alması ........................................................ 205
Kələkiyə yolasalma ........................................................ 210
Mehrinisə ananın ölümü ........................................................ 210
Vəzirov iqtidarı ........................................................ 213
“Varlıq” Cəmiyyəti və... ........................................................ 216
Meydan hərəkatı ........................................................ 217
Ermənistanda zəlzələ ........................................................ 229
Dağlıq Qarabağda Xüsusi İdarə Komitəsinin
yaradılması ........................................................ 231

Azərbaycan Xalq Cəbhəsinə gedən yol...................... 232
Azərbaycan Xalq Cəbhəsinin təsis konfransı............ 234
Xalq Cəbhəsinin qərargahı........................................... 236
AXC içində müxalifət .................................................. 238
Sərhəd dirəklərinin sökülməsi ................................... 240
Əbülfəz bəy yenidən AXC sədridir ............................ 243
Xalq Cəbhəsinin yeni qərargahı ................................. 254
Radikal çıxışlar ............................................................. 255
Naxçıvanın SSRİ-dən çıxmaq qərarı........................... 257
Qanlı yanvar .................................................................258
Azərbaycan Ali Sovetinin sessiyası ............................ 271
Şəhidlərin dəfni ........................................................... 272
30 aprel 1990. AXC-nin Göyçay Məclisi ..................... 278
Məsləhət Şurası və Mütəllibovun prezidentliyi ....... 288
Yenidən yüksələn Bayraq............................................ 291
Heydər Əliyev doğma torpaqda ................................ 296
İqtisadi müstəqillik haqqında qanundan yeni
qərargahadək ............................................................... 297
Kirovun heykəli........................................................... 301
Həqarət və üzr .............................................................. 303
Turan Yazqan, Elçibəy və Qumilyov ......................... 305
Naxçıvan prezidenti yox, Xalq Cəbhəsini tanıyır .... 311
Xudafərin körpüsü....................................................... 312
"Səs verən deyil, səsləri sayan önəmlidir" ................ 314
"Bu yol uzundur" ..........................................................317
Yeltsin və Nazarbayev Bakıda..................................... 319
Milli Şuranın qurulması haqqında razılaşma ........... 322
Aclıq aksiyası ............................................................... 323
Müstəqil Azərbaycan...................................................323

Qarabağda durum daha da pisləşir ............................ 327
26 fevral 1992. Xocalı faciəsi ....................................... 329
Mütəllibovun istefası .................................................... 339
"Deyirdim ki, bu quruluş dağılacaq" ........................ 344
2–3 may 1992. Türkeş və Dəmirəl Bakıda .................. 349
Mütəllibovun qayıdışı ................................................ 354
Xalq Cəbhəsinin dirənişi ............................................ 356
Hakimiyyət Xalq Cəbhəsinə keçir .............................. 359
AXC sədri Əbülfəz Elçibəyin mətbuat konfransı ..... 361
Əbülfəz Elçibəy Azərbaycan Prezidentidir! .............. 362
Prezident Elçibəyin andiçmə mərasimi ..................... 364
Prezidentin Türkiyə ziyarəti ....................................... 369
Manat, Dövlət Ləl-Cəvahirat Fondu və... .................. 373
Gəncə səfəri ................................................................... 376
Elçibəyə sui-qəsd .......................................................... 377
Neft qoxusu .................................................................... 379
MDB rədd edildi. Moskvaya dəvət ............................ 383
Türkiyə ziyarəti: ilk 5 gün ............................................ 385
Kayseri səfəri və sonrası ...............................................388
Dövlət dilinin adı .......................................................... 391
Təhsildə ciddi islahatlar ............................................... 393
23 dekabr 1992 xəyanəti ............................................... 396
Çətin çözülən Rəhim Qazıyev düyünü ....................... 398
Soyadlarını da milliləşdirməyə başladılar ................. 402
Heydər Əliyev Moskvada ............................................. 403
Kəlbəcərin işğalı və İsgəndər Həmidovun
televiziyaya basqını ...................................................... 404
"Onlar yerdən çıxıb?" ................................................... 408
Özalın Bakı ziyarəti ....................................................... 409

Turqut Özalın ölümü – qardaş itkisi........................... 412
Surət Hüseynovun ayaq səsləri .................................. 416
Bütün düşmənləri birləşdirən uğurlar....................... 418
Moskvada gizli görüşmə............................................ 423
4 iyun. 709-cu hərbi hissədə milli qvardiyaçıların qətli................................................................................ 426
Mehmanı ağ bayraq qaldırmağa qoymadılar ........... 431
Heydər Əliyevlə nəticəsiz danışıqlar ......................... 432
Səriştəsiz əməliyyat, uğursuz nəticə .......................... 435
Baş nazirin istefa bəyanı.............................................. 436
İqtidarın bir qalası da təslim bayrağı qaldırdı.......... 439
Heydər Əliyevin Bakıya gəlişi.................................... 441
Gəncədə söhbət ........................................................... 444
Heydər Əliyev Milli Məclis sədridir .......................... 448
İcazəni artıq prezidentdən deyil, Milli Məclis sədrindən alırdılar ........................................................ 451
Qiyamın Rusiya planları ............................................. 457
On yeddisindən on səkkizinə keçən gecə. Kələki gedişi.............................................................. 459
18 iyun 1993 ................................................................ 462
Elçibəy hakimiyyətdən bütünlüklə məhrum edildi ................................................................................ 464
Elçibəyin təhlükəsizliyi ............................................... 467
Yaxşı ki, Nəcəf Nəcəfov onun yanındaydı ................ 468
Muradın mənzilinə polis basqını................................ 469
Demokratik Konqres .................................................. 471
Ölüm əmri.................................................................... 472
Rövşən Cavadovun çevriliş cəhdi.............................. 474
Surət Hüseynovla vidalaşma ..................................... 478

Növbə Cavadovdadır .................................................. 480
Şahmərdan Cəfərovun ölümü ................................. 483
Azərbaycan Xalq Cəbhəsinin partiyalaşması ............ 484
Dövlətin rəsmi dili ..................................................... 486
Köhnə hamam, köhnə tas ........................................... 490
Kələki yalqızlığı. “Bütöv Azərbaycan yolunda” ..... 491
Bakıya dönüş............................................................... 495
Elçibəy Bakıda ............................................................. 498
Bütöv Azərbaycan Birliyi ........................................... 500
Müxalifətin etibarsızlığı ............................................. 501
Elçibəyə qarşı cinayət işi ............................................ 503
Elçibəyin xəstəliyi....................................................... 504
Mehmet Ceylan S.Dəmirəldən vəfalı çıxdı................ 505
Bu dəfə “Mən Türk millətinin əsgəriyəm!” yazdı ....508
Fatih Qısabarmaqla söhbət .......................................... 509
Elçibəyin qızı Çilənayın toyu ...................................... 519
Murad və Firuzə ilə söhbət.......................................... 519
10 gün Amerikada........................................................ 521
Gülxanə Hərbi Tibb Akademiyasında ........................ 524
Muradın ürəyi keçdi... .................................................. 527
“Ən böyük – Elçibəy, başqa böyük yox!” ..................529

**Prof. Dr. Ədalət TAHİRZADƏ**

## SANKİ YOLDAŞI OLMUŞ KİMİ
(Ön söz yerinə)

Allahın hər işində bir hikmət var. İl yarım bundan öncə "Qanun" nəşriyyatının direktoru Şahbaz Xuduoğluyla görüşdüyümdə dünyanın və Azərbaycanın görkəmli adamları haqqında kitablar buraxdığı halda niyə Azərbaycanın azadlıq və müstəqilliyi uğrunda Xalq Hərəkatının lideri olmuş Əbülfəz Elçibəy haqqında kitab yayınlamadığını soruşdum. Cavabında qayıtdı ki, o kitabı kim yazıb mənə verdi ki nəşr etmədim? Onda dedim ki, mənim 2001-də çıxmış "Prezident Elçibəy" kitabımın təkmilləşdirilmiş ikinci nəşrini buraxa bilərsinizmi? Cavabı "məmnuniyyətlə" oldu. Razılaşdıq. "Prezident Elçibəy"in ikinci nəşrinə hazırlıq gördüm. Elə bu vaxt internetdə oxudum ki, Türkiyədə "Dəmircan" soyadlı bir müəllif "Elçibəy" adlı bioqrafik roman nəşr etdirib. Sifariş verib kitabı gətirtdim. Oxudum. Valeh oldum. Şahbaz bəyə zəng vurub dedim ki, Dəmircanın romanı da çox gözəldir; "Prezident Elçibəy"in yerinə onu nəşr edəkmi? Cavabı müsbət oldu, ancaq bu müəllifə də qonorar verə bilməyəcəyini bildirdi.

İnternetdə axtarıb Mehmet Necati Dəmircanı tapdım. Əlaqə yaradıb danışdıq. Durumu anlatdım. Kitabının Bakıda Azərbaycan türkcəsində də çıxmasından məmnun olacağını bildirdi. Mənim redaktor olmağımı və qonorar əvəzinə müəyyən

sayda kitab istədi. Nəşriyyatın tələb etdiyi rəsmi bəlgələr də hazırlanıb verildi. Mehmet Necati bəy əsərin elektron versiyasını mənə və “Qanun”a göndərdi. Nəşriyyat Azərbaycan türkcəsinə uyğunlaşdırmaq üçün əsəri tərcüməçiyə yönəltdi. O da üzərində xeyli çalışdı. Bu arada mən darqursaqlıq edib tez-tez nəşriyyatı tələsdirdim. Bitmiş tərcüməni “Qanun” mənə yollayanda isə universitetdə məşğələ və imtahanların ən qızğın çağı idi. Vaxt məhdudluğu redaktə ilə hər gün məşğul olmağa imkan vermirdi. Bu dəfə də nəşriyyat məni tələsdirməyə başladı. Əlacsız qalaraq Şahbaz bəydən iki dəfə möhlət istəməli oldum. Nəhayət, yay tətilinə çıxınca əsər üzərində arxayın işləyə bildim. Elə bu vaxt gördüm ki, əsərdə Elçibəyin həyatıyla bağlı bir çox məqamlar unudulub, yaxud zəif işıqlandırılıb. Vatsapp vasitəsilə müəlliflə fasiləsiz yazışmağa və danışmağa başladıq. Mehmet bəy ona göndərdiyim qaynaqları operativ şəkildə işləyib əsərin uyğun yerinə əlavə edərək mənə qaytarır, mən də Azərbaycan türkcəsinə uyğunlaşdırırdım. Nəticədə həm redaktəni yalnız 2023-ün avqustunun sonunadək bitirmək mümkün oldu, həm də ortaya Türkiyə nəşrindən yetərincə fərqlənən, ancaq Elçibəyi oxucuya incəliyinədək tanıdan mükəmməl bir əsər çıxdı. Əminəm ki, Azərbaycan oxucusu “Elçibəy”i oxumaqla Elçibəyi daha da artıq sevəcək.

***

Əsər haqqında danışmazdan öncə Azərbaycan oxucusuna onun müəllifini tanıtmağın gərəkdiyini düşünürəm. Yazar Mehmet Necati Dəmircan 18 iyun 1964-də Türkiyəmizin Kayseri şəhərində 6 uşaqlı ailənin dördüncü övladı kimi dünyaya gəlib. Atası İbrahim Dəmircan Kayseri Bazarörən Kənd İnstitutunu bitirərək Orta Anadolu kəndlərində müəllim işləyib, anası Nəsibə isə ev xanımı idi.

Mehmet Necati öncə Kayseri Qaziosmanpaşa ibtidai məktəbinə gedib, sonra Kayseri Sümer orta məktəbində oxumağa başlayıb və orta təhsilini Yozqat Çandır Böyükqışla məktəbində bitirib. Orta məktəb illəri Türkiyədə gur siyasi hadisələrin yaşandığı dönəmə düşüb. Ölkə sağ-sol, sosialist-kapitalist tərəfdarları ilə çalxanırdı. Şəhərlər, qəsəbələr, kəndlər, məhəllələr fərqli siyasi düşüncəli insanlara bölünmüşdü. Bunun təsiri məktəblərə də keçmişdi. Adamlar övladlarını özlərinə yaxın bildiyi siyasi təmayülün üstün olduğu məktəblərə verirdi. Terror bütün ölkəyə yayılmışdı. Vətəndaşlar öldürülürdü. İqtisadi durum acınacaqlıydı. Ən ehtiyac duyulan mallar tapılmır, bahalıq baş alıb gedirdi. 12 sentyabr 1980-də hərbi çevriliş oldu. Ordu ölkə idarəsini öz əlinə aldı. Vətəndaşların çoxu oxuyur, düşünür, ölkə problemlərinin çözümünə yollar arayırdı. Fərqli siyasi görüşlü bir çox adamlar hərbi məhkəmələrdə siyasi suçlu olaraq ittiham edildi. Edam, həbs cəzaları kəsildi, siyasi yasaqlar qoyuldu...

Belə bir ictimai-siyasi durumda Kayseri Mərkəzi Sənaye Peşə Liseyinə gedən Mehmet Necati elektrik bölümündə oxumağa başlayıb. Küçə hadisələrinə son verilsə də, hələ də hamı bir-birinə şübhəylə baxırdı. Yaxın keçmişdə yaşanmış acı olaylar unudula bilmirdi.

Onun lisey təhsili zamanı Sovetlər Birliyinin Əfqanıstanı işğal etməsi, İraq–İran savaşı kimi dünyanın gələcəyinə yön verəcək hadisələr yaşanırdı. Sovetlər Birliyi qapalı bir qutuydu. Orada da çoxmilyonlu türk insanı yaşayır, rus imperializminin pəncələri altında inləyirdi. Bunu Türkiyədəki soydaşları bilsə də əllərindən heç nə gəlmirdi. Sovetlərin Əfqanıstandakı məğlubiyyəti türkiyədəkilərə bir umud verdi, çünki o boyda imperiyanın bütünlüklə çürüdüyünü gördülər.

Bütün bunların canlı şahidi olan Mehmet Necati lisey təhsilini tamamlayaraq 1984-də Diyarbəkirdə Dəclə Univer-

sitetinin Təhsil fakültəsi Türk dili və ədəbiyyatı bölümünə girərək oranı 1988-də başa vurub. Elə həmin il də Mardin elinin Qızıltəpə ilçəsindəki liseydə türk dili və ədəbiyyatı müəllimliyinə başlayıb. 1989-da təyinatı doğulduğu Kayseriyə verilib. Evlənib, Başaq və Dəniz adlı qızları olub.

Mehmet Necati bəy 1995–1997-ci illər arasında Sivasdakı Cümhuriyyət Universiteti Sosial Bilimlər İnstitutunda türk dili və ədəbiyyatı bölümündə xalq bilimi (folklor) üzrə yüksək lisans (bizdəki keçmiş aspiranturaya uyğundur) təhsilini “Sivas qaynaqlı cünglər üzərində tədqiq” adlı dissertasiyası ilə bitirib və folklorçu diplomu alıb. Bu iki il onun üçün çox çətin keçib, çünki hər həftə iki gün Kayseridən Sivasa gedib-gəlməli olub.

Bundan sonra Milli Təhsil Nazirliyinin məktəblərində ədəbiyyat müəllimi və idarəçi kimi çalışan Mehmet Necati bəy çoxlu folklor örnəkləri toplayıb, dərsliklər, dərs vəsaitləri hazırlayıb. “Ərciyəs”, “Geçit”, “Kültür Çağlayanı”, “Bilgi Yurdu”, “Kümbət Altında” və “Çıngı” dərgilərində çoxlu məqalə, oçerk, hekayə və başqa əsərləri yayımlanıb.

Türkiyədə olduğu kimi, Kayseridə də yeni nəsil Əbülfəz Elçibəyi tanımadığına görə bu şəhərdəki “Bilgiyurdu” Gənclik Təhsil və Kültür Dərnəyi onu soydaşları arasında tanıtmağı qərara alıb. Dərnəyin ağsaqqalı (Dədə Qorqudu) Mustafa Öztürk Əbülfəz bəyin özkeçmişini (tərcümeyi-halını) bütünlüklə əks etdirən bir bioqrafik roman yazılmasını istəyib və Mehmet Necati bəy koronavirus pandemiyası dönəmində çox gərgin işləyərək həmin romanı bitirib. Dərnək üzvləri əsəri çox bəyənib və 2020-də onu nəfis şəkildə nəşr ediblər.

Əbülfəz Elçibəy kimi çox önəmli bir tarixi şəxsiyyət haqqında roman yazılmasının Mehmet Necati bəyə etibar edilməsi heç də təsadüf deyildi, çünki onun 20 kitabı nəşr olunmuş və xeyli önəmli mükafatlara layiq görülmüşdü. Onun bu romanları var-

dır: “Bozkırda Eşq və Üsyan” (İstanbul, 2013), “Rumelidə Xəzan Mövsümü” (Ankara, 2016), “Toros” (Kayseri, 2019), “Elçibəy” (Kayseri, 2020).

Onun bu dərslikləri Türkiyə məktəblərində tədris olunmaqdadır: lisey üçün “Türk Ədəbiyatı Tarixi” (Ankara, MEB Yayınları, 2002), orta məktəblər üçün “Türk Dili və Ədəbiyatı” (10-cu sinif. Ankara, Ödəv Yayınları, 2021) və “Türk Dili və Ədəbiyatı” (9-cu sinif. Ankara, Ödəv Yayınları, 2022).

Bunlar isə dərs vəsaitləridir: “Türkcə – Ədəbiyat” (Kayseri, 1995), “İmla Kılavuzu” (Kayseri, 1999), “Şair və Yazarlar Sözlüyü” (Kayseri, 1999), “Türk Ədəbiyatı Tarixi (Seyid Bürhanəddin Akbaş ilə bərabər)” (Kayseri, 1999), “Türkcə Hazırlıq” (İzmir, 2004), “Türk Dili və Ədəbiyatı“ (9-cu sinif, yardımçı dərslik. Ankara, 2016), “Paragraf Soru Bankası” (Ankara, 2017).

Mehmet Necati bəy “Dündən Bugünə Aydın Halk Kültürü” (Ankara, Kültür Bakanlığı Yayınları, 2007) kimi ciddi bir folklor araşdırmasının da müəllifidir.

O, 2015–2016-cı illərdə “Kitabi-Dədə Qorqud” hekayələrini, Ömər Seyfəddindən seçmə hekayələri, Nəsrəddin Xocadan seçmə lətifələri, Hüseyn Rəhmi Gürpınarın “Quyruqlu Yıldız Altında Bir İzdivac” və “Qulyabani” əsərlərini, Xalid Ziya Uşaqlıgilin “Mavi və Siyah” əsərini osmanlıcadan çağdaş türkcəyə çevirərək nəşr etdirib.

Yazdığı əsərlərə görə o, 1986, 1988, 2014 və 2016-cı illərdə dövlət və özəl qurumlarının nüfuzlu mükafatlarına layiq görülüb.

***

İndi isə Mehmet Necati Dəmircanın “Elçibəy” sənədli-bədii tarixi romanı haqqında bəzi düşüncələrimi oxucularla bölüşmək istəyirəm.

Hər şeydən öncə, bunu qeyd edim ki, Azərbaycan oxucusu üçün bu əsər Elçibəyə kənardan bir baxış olduğuna görə daha çox maraqlıdır, çünki o, indiyədək Azərbaycanda Elçibəy haqqında nəşr edilmiş bir çox kitablar oxuyub, ancaq ölkəmizdən kənarda yaşayan müəllifin Elçibəy haqqında nə düşündüyü, əlbəttə, maraq doğurur.

Bu başdan bildirim ki, yazar öz işinə hədsiz sevgi və məsuliyyətlə yanaşıb. Əsəri oxuyub qurtardıqdan sonra oxucuda elə təsəvvür yaranır ki, Mehmet Necati bəy sanki Əbülfəz bəyin bütün ömrü boyu sadiq bir yoldaşı kimi onun yanında bulunub, bütün yaşantılarının canlı şahidi olub və yalnız gördüklərini qələmə alıb. Mən ilk söhbətimizdə ondan Əbülfəz bəylə neçə dəfə görüşdüyünü, Bakıya, Kələkiyə neçə dəfə gəldiyini soruşdum və təəccüblə öyrəndim ki, onun ayağı hələ Azərbaycan torpağına dəyməyib. İnanmağım gəlmədi – axı bu qədər geniş bilgini başqa cür necə əldə etmək olar?! Bildirdi ki, mən internetdəki Elçibəylə bağlı bütün mövcud materiallarla tanış olmuş, onun haqqında yazılmış, demək olar ki, bütün kitab və məqalələri, xatirələri oxumuş, Yutubdakı videolara baxmış, səs yazılarını dinləmiş, televiziya və radio verilişləriylə tanış olmuş, başqa qaynaqlardan da bilgilər əldə etmişəm.

Şəxsən mənim üçün fərəhlidir ki, “Meydan: 4 il 4 ay”, “Elçi bəy”, “Prezident Elçibəy”, “Elçibəylə 13 saat üz-üzə” və başqa kitab və məqalələrim də əsərin yazılışında müəllifin qolundan tutub.

Bəli, gerçəkdən qibtə ediləcək gərgin çalışmaların sonucunda Əbülfəz Elçibəyin doğumundan ölümünədək bütün yaşamı oxucuya sanki güzgüdə əksini taparcasına təqdim edilib. Əsərdə bəzən o qədər incə faktlarla üzləşirsən ki, təəccübdən əlin üzündə, ağzın açıla qalır və istər-istəməz öz-özündən soru-

şursan: "Bunu müəllif haradan bilir?" Örnək üçün iki kiçik parçaya baxaq:

*"Bənövşə xala yaylaqda qalan digər qadınlara xəbər göndərdi. Bir az sonra Hacıxanım, Xanzeynəb, Mənsumə və Güləbətin xala Mehrinisənin alaçığındaydı. Qoyunları sağmaq üçün yaylaqda qalmışdılar, işlərini bitirdikdən sonra onlar da səs vermək üçün Kələkiyə yola düşəcəkdilər. Muradla Almuradı Hacıxanım xalanın qızı Mələk öz alaçıqlarına apardı".*

*"1954-cü il ailə üçün çətinliyə gedişin son qoyulduğu bir il oldu. Murad noyabr ayında Mehrinisənin əmisi qızı Firuzə ilə evləndi".*

Müəllifin öz işinə bu cür titizliklə yanaşması hər cür alqışa, tərifə layiqdir.

Doğrudur, Mehmet Necati bəy öz əsərini "roman" adlandırıb və bu ad yalnız bədii üslubu baxımından özünü doğruldur, ancaq bütövlükdə götürdükdə, əsər olduqca ciddi elmi araşdırmanın məhsulu olduğuna görə romanlıqdan xeyli çıxır. Qəti şəkildə bəyan edirəm ki, əlinizdəki bu kitab bədii dillə yazılsa da, məzmunca hər bir faktı gerçək bəlgə və bilgiyə söykənən çox ciddi bir elmi tədqiqatdır.

Əsərin, məncə, üstün cəhətlərindən biri yazarın öz qəhrəmanını ideallaşdırmağa çalışmaması, onu həyatda necə olubsa elə o cür də təqdim etməsidir. Buna görədir ki, oxunmuş hər bir cümlədə, hər bir mətn parçasında əksini tapmış fikir oxucuya səmimi görünür, onu öz doğruluğuna inandırır.

Başqa bir müsbət məqam isə Dəmircanın sensasiyadan uzaq qaçmağa çalışması, Elçibəyin siyasi rəqibləri ilə münasibətlərinə geniş yer verməkdənsə gücü onun özünün bir siyasi lider kimi hərtərəfli təqdim olunmasına yönəltməsidir.

Şəxsiyyətin böyüklüyü onun gördüyü işlərin mövcud tarixi şərait fonunda təsviri zamanı üzə çıxır. Bu mühüm amili